Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının “___”“________” 2023-cü il tarixli _____________nömrəli Qərarı ilə təsdiq edilmişdir.

# İstehsalatda baş verən bədbəxt hadisələr barədə məlumatların qəbulu və bu hadisələrin təhqiqatının aparılması xidmətinin

## PASPORTU

**Xidmətin adı:**

- İstehsalatda baş verən bədbəxt hadisələr barədə məlumatların qəbulu və bu hadisələrin təhqiqatının aparılması

**Xidmətin məzmunu:**

- İşəgötürən tərəfindən istehsalatda baş verən bədbəxt hadisələrin ağırlıq dərəcəsindən asılı olmayaraq dərhal əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti həyata keçirən orqana məlumatın verilməsi və əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan tərəfindən daxil olmuş məlumat əsasında bədbəxt hadisənin istehsalatla bağlılığının araşdırılması

**Xidmətin aid olduğu təsnifat:**

- Əmək münasibətləri

**Xidməti həyata keçirən dövlət qurumunun adı:**

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (Nazirlik) yanında Dövlət Əmək Müfəttişiliyi Xidməti (Xidmət)

**Xidmətin hüquqi əsası:**

- Azərbaycan Respublikası Əmək Məcəlləsi
- Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 fevral 2000-ci il tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları”

**Xidmətin həyata keçirilmə formaları:**

- Xidmət yerinə şəxsən və ya nümayəndəsi gəlməklə
- Elektron qaydada
- Bilavasitə iş yerlərində
- Poçt vasitəsilə
- Çağrı mərkəzi vasitəsilə

**Xidmətin həyata keçirilməsi və nəticəsi barədə məlumatlandırma forması:**

- Elektron qaydada
- Çağrı mərkəzi vasitəsilə
- Birbaşa (yerində)
- Poçt vasitəsilə

**Xidmətin həyata keçirilməsinin nəticəsi:**

- Araşdırmanın nəticəsinin aktla rəsmiləşdirilməsi

**Xidmət istifadəçisi barədə məlumat:**

- İşəgötürənlər
- İşçilər
- Həmkarlar İttifaqları

**Xidmətin həyata keçirilməsi müddəti, xidmət haqqı, xidmət ödənişli olduqda ödənilmə üsulları:**

- Müddət: 20 (iyirmi) gün
- Xidmət haqqı: Ödənişsiz

**Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti:**

- Elektron qaydada 7/24
- Digər hallarda iş günlərində iş saatları ərzində

**Xidmətin göstərilmə yeri:**

- Xidmətin Aparatı və regional şöbələrinin inzibati binası

**Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları:**

- Sənədlərin natamamlığı
- Hüquqi əsasın olmaması

**Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması:**

**İstehsalatda baş verən bədbəxt hadisələr barədə məlumatların qəbulu üzrə:**

- İşəgötürənin VÖEN-i, adı
- Zərərçəkən(lər)in FİN-i, soyadı, adı, atasının adı, yaşı, peşəsi, vəzifəsi, hadisənin baş verdiyi tarix (il, ay, gün, saat), şərait (hadisə baş verərkən yerinə yetirilən işin və ya istehsalat qəzasının təsviri), bədbəxt hadisənin nəticəsi (xəsarət, ölüm)və bədbəxt hadisədən zərərçəkənlərin ümumi sayı göstərilməklə işəgütürənin məlumatı

**İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqatının aparılması üzrə:**

- Hadisə yerinin planı, sxemləri (eskizləri), müşahidə protokolları və fotoşəkilləri
- Zərərçəkən(lər)in təlim keçməsi və təlimatlandırılması haqqında sənədlərdən çıxarış
- Qəza ilə əlaqədar olaraq dəymiş maddi ziyan haqqında arayış
- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsinin surəti
- Təhlükəsiz əmək şəraitinin təmin edilməsi üzrə tədbirlər və bunun üçün məsul şəxsləri müəyyən edən təlimatlardan, əsasnamələrdən, əmrlərdən, digər aktlardan çıxarışlar
- Xidmətin həyata keçirilməsi üçün tələb edilən sənədləri elektron qaydada əldə etmək mümkün olmadıqda kağız üzərində təqdim edilir

**Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar:**

- Daxil olmuş məlumat Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemində (MEİS) qeydiyyata alınır
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 fevral 2000-ci il tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları”na uyğun araşdırılması aparılır

**Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar:**

- "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 71-72-ci maddələrinə əsasən xidmət istifadəçiləri xidmətin göstərilməsindən edilən imtinadan 30 gün müddətində yuxarı səlahiyyətli orqana inzibati qaydada şikayət verə bilər. İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə daxil olduğu gündən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 78-ci maddəsinə əsasən 1 ay müddətində baxılır və mahiyyəti üzrə qərar qəbul edilir. Müəyyən edilmiş müddət ərzində qərar qəbul edilmədikdə və ya qəbul edilmiş qərarla razılaşmadıqda, şikayətçi məhkəməyə şikayət verə bilər
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 fevral 2000-ci il tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması

Qaydaları”nın 1.5-ci bəndinə əsasən işəgötürən və ya zərərçəkən (onun vəkili və ya marağını qoruyan şəxs) Təhqiqat komissiyasının qərarı ilə razılaşmadıqda, Xidmətin rəhbərliyinə və ya məhkəməyə müraciət edə bilər.

**Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları:**

- “Elektron hökumət” portalı
- MEİS
- “e-sosial” internet portalı

**Xidmətin elektronlaşma səviyyəsi:**

- Elektronlaşdırılmayıb

**Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:**

- Avtomatlaşdırılmayıb